AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA MUSİQİ TƏHSİLİNİN VƏ FORTEPİANO İFAÇILIQ SƏNƏTİNİN İNKİŞAFINDA PROFESSOR NİGAR USUBOVANIN ROLU

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Günel Akif qızı Eyvazzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Azərbaycan Respublikasının
Əməkdar incəsənət xadimi,
fəlsəfə elmləri doktoru, professor
**Gülnaz Abutalıb qızı Abdullazadə**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**Sevda Firuddin qızı Qurbanəliyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru,
professor
**Zemfira Kəlpəli qızı Abdullayeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent
**Cəmilə Bəşarət qızı Mirzəyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru,
professor
__________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının
elmi katibi: sənətşünaslıq doktoru, dosent
__________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
__________ **Aytac Elxan qızı Rəhimova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan fortepiano ifaçılığı tarixi zəngin ənənələrə malikdir. Azərbaycan fortepiano mədəniyyəti tarixinin öyrənilməsi ilə yanaşı, bu məktəbi təmsil edən ayrı-ayrı nümayəndələrin yaradıcılıq fəaliyyətlərinin öyrənilməsi, milli ifaçılıq tarixində əhəmiyyətlərinin müəyyən olunması, eləcə də ənənələrin təsiri nəticəsində musiqi təhsili sisteminin yaranması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan fortepiano musiqisinin formalaşması və inkişafı yolunda görkəmli ifaçı-pedaqoqların fəaliyyətinin araşdırılması, onların elmi və pedaqoji istiqamətlərinin müəyyən olunması, həmçinin mükəmməl bədii keyfiyyətlərə malik olması və milli ifaçılıq tarixinin təkamülündə əhəmiyyət kəsb etməsi böyük elmi marağa səbəb olmuşdur. Bu baxımdan milli fortepiano ifaçılığı sahəsinin öyrənilməsi sahəsində tədqiqatçılar bir sıra maraqlı və müxtəlif istiqamətli araşdırmalar aparmış və əsaslandırılmış elmi mülahizələr əldə etmişlər. Bu istiqamətdə yazılmış elmi-tədqiqat işlərinin davamı kimi təqdim olunan dissertasiya işi indiyə qədər öyrənilməyən bir sahənin araşdırılması ilə bağlıdır.

Təqdim olunan dissertasiya Azərbaycan fortepiano ifaçılığı və təhsili sahəsində mühüm əhəmiyyət kəsb edən Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor, istedadlı pianoçu Nigar xanım Usubovanın yaradıcılıq və pedaqoji fəaliyyətinin tədqiqinə həsr olunmuşdur.

Rus fortepiano ifaçılığı məktəbinin səciyyəvi cəhətlərini, xüsusilə müəllimi, professor A.B.Qoldenveyzerin pedaqoji ənənələrini davam etdirən Nigar Usubovanın elmi və pedaqoji fəaliyyətinin elmi-tədqiqat əsəri səviyyəsində öyrənilməsi milli fortepiano ifaçılığı mədəniyyətinin tarixi və nəzəri baxımdan araşdırılması sahəsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Nigar Usubovanın fəaliyyətini həm Azərbaycan fortepiano mədəniyyətinin mərhələli inkişaf tarixində, həm də musiqi təhsili sahəsində izləmək böyük maraq oyadır.

Nigar Usubovanın səciyyələndirən əsas xüsusiyyətlərdən biri də odur ki, görkəmli pedaqoq elmi və pedaqoji fəaliyyətilə yanaşı,

ictimai işlərdə də fəal olmuşdur. Hərtərəfli bir şəxsiyyət olan Nigar Usubovanın elmi fəaliyyəti, pedaqoji metodikası, iş prinsipləri, elmi-metodiki mülahizələri, musiqi təhsili sahəsinə olan münasibəti Azərbaycan fortepiano mədəniyyətinin inkişafı sahəsində mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyanın aktuallığını müəyyənləşdirən mühüm cəhət Nigar Usubovanın yaradıcılığının indiyə qədər diqqətdən kənarda qalması və çoxşaxəli fəaliyyətinin araşdırılmamasıdır. Halbuki, Nigar Usubovanın fəaliyyəti Azərbaycan musiqi təhsili və fortepiano ifaçılığı sahəsində mühüm mərhələni təşkil edir. Belə ki, Nigar Usubovanın pedaqoji fəaliyyəti, milli musiqi təhsili sisteminə dair tövsiyələri, elmi-metodiki fəaliyyəti, tələbələri ilə tədris prosesində verdiyi dəyərli və əvəzsiz tövsiyələri araşdırılmamışdır. Tədqiqat prosesi zamanı əldə olunan materiallar Nigar Usubova haqqında epizodik məlumat xarakteri daşıyır. Eləcə də nəsil şəcərəsinin araşdırılması zamanı müəyyən tarixi məlumatlara rast gəlinir və bunlarda Nigar Usubovaya ancaq nəslin nümayəndəsi kimi yanaşılır. Bundan irəli gələrək, Nigar Usubovanın yaradıcılıq fəaliyyətinin elmi-nəzəri baxımdan araşdırılması xüsusi əhəmiyyət kəsb edir. Həmçinin, qeyd etmək lazımdır ki, Nigar Usubovanın yaradıcılığının müxtəlif istiqamətləri, o cümlədən elmi-pedaqoji fəaliyyəti, musiqi təhsili sahəsində xidmətləri, təşkilati işlərlə məşğul olması və digər əhəmiyyətli sahələri təqdim olunan tədqiqat işində araşdırılmışdır.

Məlumdur ki, Azərbaycan fortepiano məktəbinin yaranması və formalaşmasında M.R.Brenner, G.G.Şaroyev kimi rus ifaçılıq məktəbinin nümayəndələrinin mühüm rolu olmuşdur. Bu baxımdan həmin məktəbin ən gözəl ənənələrini özündə cəmləşdirən Nigar Usubova Azərbaycan musiqi təhsili və fortepiano ifaçılığı sahəsində mühüm rol oynamış, dəyərli metodik tövsiyələri və pedaqoji təcrübəsi ilə bu sahənin inkişafına öz töhfələrini bəxş etmişdir.

Müxtəlif illərdə Azərbaycan fortepiano məktəbinin tarixi araşdırılmış, tədris prosesi və milli fortepiano ifaçılığı sahəsində bir çox ifaçıların yaradıcılıq fəaliyyətinin təhlil edilməsinə əsaslanan elmi-tədqiqat əsərləri yaranmışdır. Bu baxımdan T.M.Seyidov, O.H.Abasquliyev, F.Z.Xəlilova, L.S.Rzayeva, A.H.Mailova, L.H.Abasquliyeva, X.N.Rzayeva, H.A.Məhərrəmova,

K.Q.Hüseynova, E.R.Kəbirlinskaya, A.X.Xəlilova və V.C.Məmmədovanın elmi-tədqiqat işləri diqqətəlayiqdir və bu araşdırmalar təqdim olunan dissertasiya işinin yaranmasında elmi mənbə kimi əhəmiyyətlidir.

Lakin əvvəldə qeyd etdiyimiz kimi, Nigar Usubovanın yaradıcılığı ümumiyyətlə araşdırılmamışdır və onunla bağlı olan məlumatlar çox məhdud saydadır. Belə ki, Nigar Usubovanın həyat və yaradıcılığı, eləcə də elmi-pedaqoji fəaliyyəti ilə bağlı bir sıra məlumatlara müəyyən nəşrlərdə, ensiklopediyalarda, müəyyən xatirələrdə rast gəlmək mümkündür.

N.Usubovanın nəsil şəcərəsi Ş.Ə.Nəzirlinin [1, 2, 3] və İ.B.Umudlunun tarixi araşdırmaları[4, 5] əsasında tərtib olunmuşdur. T.M.Seyidovun "Азербайджанская фортепианная культура XX века" ("Azərbaycan fortepiano mədəniyyətinin görkəmli nümayəndələri")[6] adlı oçerklər kitabında, XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkar yaradıcılığı[7] adlı monoqrafiyasında Nigar Usubovanın yaradıcılığından ümumi şəkildə bəhs olunmuşdur. "Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının 50 illiyi"nə[8] həsr olunan kitabda Nigar Usubova haqqında məlumat verilmiş və fəaliyyətinin qısa icmalı nəzərə çatdırılmışdır. "Azərbaycan qadını ensiklopediyası"nda[9] M.Mərdanov və Ə.Tahirzadənin "1920-ci ilədək ali məktəblərdə oxumuş

---

1 Nəzirli, Ş.Ə. Arxivlərin sirri açılır / Ş.Ə.Nəzirli. – Bakı: Elm, – 1999. – 414 s.
2 Nəzirli, Ş.Ə. Azərbaycan generalları / Ş.Ə.Nəzirli. – Bakı: Gənclik, 1991. – 209 s.
3 Nəzirli, Ş.Ə. Cümhuriyyət generalları / Ş.Ə.Nəzirli. – Bakı: Şərbi nəşriyyatı, – 1995. – 212 s.
4 Umudlu, İ.B. Salahlı eli. Tarixi-etnoqrafiya-insanlar-yurd bilgisi / İ.B.Umudlu. – Bakı: Apostrof nəşriyatı, – 2011. – 912 s.
5 Umudlu, İ.B. Vəkiloğulları: Tarixi-bioqrafik araşdırma / İ.B.Umudlu. –Bakı: QAPF-Poliqraf nəşriyyatı, – 2003, – 536 s.
6 Видные деятели фортепианной культуры Азербайджана / сост: Т.М.Сеидов. – Баку: Ишыг, – 1988. – 172 с.
7 Seyidov, T.M. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı / T.M.Seyidov. – Bakı: Təhsil, – 2016. – 336 s.
8 Азербайджанская Государственная Консерватория им. У.Гаджибекова / Под. ред. С.Гаджибекова. – Баку: Азернешр, – 1972. – 212 с.
9 Azərbaycan qadını ensiklopediyası. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi. – 2002. – 402 s.

azərbaycanlılar”[10] adlı ensiklopedik soraq kitabında, İ.B.Umudlunun “Salahlı eli. Tarixi-etnoqrafiya-insanlar-yurd bilgisi” [11] adlı tarixi məlumatlara əsaslanan kitabında, S.S.Məmmədovun “Qadın, gözəllik və ülviyyət”[12] ensiklopedik toplusunda, S.Hidayətqızının “Yüz türk qadını” [13] adlı kitabında Nigar Usubova haqqında ümumi tarixi məlumatlara rast gəlinir. Natəvan Faiqin “Bunu ifa emək üçün...”[14] adlı məqaləsində Nigar Usubovanın ifaçılıq metodikası haqqında müəyyən məlumatlar verilmişdir. Lakin Azərbaycanda musiqi təhsili və fortepiano ifaçılığı sahəsində mühüm xidmətləri olan Nigar Usubovanın geniş və hərtərəfli yaradıcılıq fəaliyyəti sistemli və əsaslandırılmış şəkildə təhlil edilməmişdir. Tədqiqat işində Nigar Usubovanın sinfini bitirmiş tələbələri ilə görüşmələr və onların müəllimləri haqqında xatirələri əhəmiyyətli material kimi istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan musiqi təhsili və fortepiano ifaçılıq məktəbi kontekstində Əməkdar İncəsənət Xadimi, sənətşünaslıq namizədi, professor, istedadlı pianoçu Nigar xanım Usubovanın elmi yaradıcılığı və pedaqoji fəaliyyəti, predmetini isə fortepiano üçün yazılmış əsərlərin öyrənilməsinə dair praktik göstərişləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri** Azərbaycan fortepiano təhsili və ifaçılığı sahəsində Nigar Usubovanın rolunu və əhəmiyyətini müəyyən etməkdən ibarətdir. Məqsəddən çıxış edərək, aşağıdakı məsələlərin həlli nəzərdə tutulur:

–Nigar Usubovanın nəsil şəcərəsinin onun formalaşmasında əhəmiyyətini işıqlandırmaq;

---

[10] Mərdanov, M.C. 1920-ci ildək ali məktəblərdə oxumuş azərbaycanlılar. Ensiklopedik soraq kitabı. / M.Mərdanov, Ə.Tahirzadə. – Bakı: Təhsil, – IV c. – 2020. – 536 s.

[11] Umudlu, İ.B. Salahlı eli. Tarixi-etnoqrafiya-insanlar-yurd bilgisi / İ.B.Umudlu. – Bakı: Apostrof nəşriyatı, – 2011. – 912 s.

[12] Məmmədov, S.S. Qadın, gözəllik və ülviyyət. Ensiklopedik toplu / S.S.Məmmədov. – Bakı: Azərbaycan, – 2001. – 336 s.

[13] Hidayətqızı, S. Yüz türk qadını. I kitab. / S.Hidayətqızı. – Bakı: Apostrof, – 2012. – 319 s.

[14] Натаван Фаиг. Чтоб это сыграть, нужно терять, понимаешь [Электронный ресурс] / URL: https://reading-hall.ru/publication.php?id=21735

–Rus ifaçılıq məktəbi ənənələrinin Nigar Usubovanın yaradıcılıq fəaliyyətinə təsirini müəyyənləşdirmək;

–Nigar Usubovanın elmi və elmi-metodiki fəaliyyətini araşdırmaq;

–Azərbaycan musiqi təhsili sahəsinə dair Nigar Usubovanın elmi baxışlarını işıqlandırmaq;

–Milli fortepiano ifaçılığı sahəsində Nigar Usubovanın gördüyü işləri araşdırmaq;

–Nigar Usubovanın pedaqoji repertuarını müəyyən etmək və tələbələrlə iş prosesini işıqlandırmaq;

–İstedadlı pianoçu Nigar Usubovanın pedaqoji metodikasının xüsusiyyətlərini müəyyənləşdirmək;

–Nigar Usubovanın pedaqoji fəaliyyətində müxtəlif dövrləri və cərəyanları təmsil edən bəstəkarların əsərlərinin ifaçılıq xüsusiyyətlərinə dair praktik göstərişlərini və tövsiyələrini araşdırmaq.

**Tədqiqat metodları.** Dissertasiyada Nigar Usubovanın ifaçılıq, elmi yaradıcılıq və pedaqoji fəaliyyətinin təhlili üçün tarixi, sistemli, analitik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Dissertasiya işinin əhəmiyyətli hissəsini Nigar Usubovanın pedaqoji və elmi yaradıcılıq xüsusiyyətlərinin müəyyənləşdirilməsi təşkil edir. Bundan irəli gələrək, rus musiqişünaslarından B.V.Asafyevin, S.S.Skrebkovun, L.A.Mazelin, Y.V.Nazaykinskinin, V.N.Xolopovanın, M.Q.Aranovskinin elmi əsərlərindəki üslub, forma və təhlil məsələləri, elmi prinsipləri metodoloji əsas kimi götürülmüşdür. Dissertasiyada A.D.Alekseyevin, L.E.Qakkelin, P.İ.Ziminin rus fortepiano ifaçılığı sənətinin yaranması, formalaşması və inkişafı tarixinə həsr olunmuş elmi əsərləri metodoloji mənbə kimi istifadə edilmişdir.

Ü.Ə.Hacıbəylinin elmi yaradıcılıq fəaliyyəti milli əsərlərin nəzəri təhlilinin əsasını təşkil edir. Azərbaycan musiqişünaslarından E.Ə.Abasovanın, G.A.Abdullazadənin, Z.Y.Səfərovanın, İ.M.Əfəndiyevanın, S.C.Qasımovanın, Ş.H.Həsənovanın, T.M.Seyidovun və Ü.İ.İmanovanın elmi-nəzəri tədqiqatları dissertasiyanın nəzəri-metodoloji əsasının yaranmasında mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan musiqi elmi sahəsində pianoçuların ifaçılıq və pedaqoji fəaliyyətini araşdıran tədqiqatlar aparılmışdır. Azərbaycan fortepiano məktəbinin formalaşmasında və inkişaf etdirilməsində mühüm əhəmiyyət kəsb edən tədqiqatlar da dissertasiyanın metodoloji əsası kimi istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** tədqiqat işinin əsas istiqamətini təşkil edir və onlar aşağıdakılardan ibarətdir:

–Nigar Usubovanın yaradıcılıq fəaliyyətinin formalaşmasında mənsub olduğu nəslin nümayəndələrin təsirinin işıqlandırılması;

–Azərbaycanda musiqi təhsilinin inkişafında N.Usubovanın elmi və elmi-metodiki fəaliyyətinin əhəmiyyətinin aydınlaşdırılması;

–N.Usubovanın bir pedaqoq kimi, Azərbaycanda musiqi təhsili sahəsində elmi baxışlarının müəyyənləşdirilməsi;

–Pedaqoji fəaliyyətinin əsas xüsusiyyətlərinin araşdırılması;

–N.Usubovanın metodikası əsasında fortepiano əsərlərində ifaçılıq prinsiplərinin şərh edilməsi;

–Dünya və Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinin öyrənilməsinə dair N.Usubovanın praktik göstərişlərinin müəyyən edilməsi;

–N.Usubovanın fortepiano ifaçılığı sahəsində əsas tövsiyələrinin tətbiqi məsələlərinin öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor, istedadlı pianoçu Nigar xanım Usubovanın elmi yaradıcılığı və pedaqoji fəaliyyəti xüsusi tədqiqata cəlb edilmiş və elmi-tədqiqat əsəri səviyyəsində öyrənilmişdir. Dissertasiyada ilk dəfə olaraq Nigar Usubovanın nəsil şəcərəsi araşdırılmış və onun formalaşmasında bu amilin mühüm rol oynaması vurğulanmışdır. Nigar Usubovanın elmi və pedaqoji fəaliyyətinin əsas prinsipləri ilk dəfə olaraq geniş təhlilə cəlb edilmiş və indiyə qədər araşdırılmayan bu mövzu ətraflı öyrənilmiş, onun ifaçılıq prinsiplərinə dair praktik göstərişləri müəyyən olunmuşdur. Tədqiqatda N.Usubovanın elmi fəaliyyətinin xüsusiyyətləri ilk dəfə olaraq araşdırılmış və elmi-metodiki istiqaməti müəyyən olunmuşdur. Xüsusilə N.Usubovanın A.B.Qoldenveyzerin bir sıra prinsiplərinə dair fikirləri işıqlandırılmış və müəllimindən gələn ənənələrin öz pedaqoji fəaliyyətində davam etdirilməsi nəzərə çatdırılmışdır.

Dissertasiyada ilk dəfə olaraq, Nigar Usubovanın pedaqoji fəaliyyətində fortepiano üçün yazılmış əsərlərin öyrənilməsi metodikasının praktiki xüsusiyyətləri araşdırılmış və tələbələri ilə görüşmələrə əsaslanaraq, iş prinsipləri öyrənilmişdir. N.Usubovanın pedaqoji fəaliyyətində hərtərəfli pedaqoji repertuara üstünlük verməsi və müxtəlif cərəyanları təmsil edən bəstəkarların əsərlərini eyni səviyyədə mükəmməl tərzdə tələbələrinə özünəməxsus metodika ilə aşılaması ilk dəfə araşdırılmışdır.

Nigar Usubovanın rus fortepiano ifaçılığı məktəbinin ənənələrini davam etdirərək pedaqoji repertuarında rus bəstəkarlarının əsərləri ilə yanaşı, romantizm, impressionizm, müasir dövr Qərbi Avropa və Azərbaycan bəstəkarlarının əsərlərinin öyrənilməsində özünəməxsus praktik tövsiyələrini yaratması ilk dəfə dissertasiyada nəzərə çatdırılmışdır. Eyni zamanda N.Usubovanın Azərbaycan musiqi təhsilinin inkişafı ilə bağlı mülahizələri və elmi düşüncələri dissertasiyada ilk dəfə olaraq araşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyanın ayrı-ayrı müddəaları və nəticələri ali və orta ixtisas musiqi təhsili müəssisələrində tədris olunan "Fortepiano incəsənəti tarixi", "Azərbaycan musiqi tarixi", "Musiqi əsərlərinin təhlili" fənləri üzrə mühazirələrdə, fortepiano ixtisası üzrə nəzəri və praktiki məşğələlərdə istifadə oluna bilər.

Dissertasiyada aparılan araşdırmalar, o cümlədən Nigar Usubovanın elmi və pedaqoji fəaliyyətinin geniş şəkildə araşdırılması Azərbaycan fortepiano mədəniyyəti tarixinin yaranması və inkişafı prosesini araşdıran tədqiqatçılar üçün də faydalı material ola bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və nəticələri yerli və xarici ölkələrin beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövrü elmi nəşrlərdə, respublika və beynəlxalq səviyyəli konfransların materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə həcmi ilə ümumi həcmi.**

Dissertasiya giriş, 3 fəsil, 10 paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, giriş 9 səhifə (15 408 işarə), I fəsil 23 səhifə (44 250 işarə), II fəsil 53 səhifə (87 224 işarə), III fəsil 75 səhifə (110 076 işarə), nəticə isə 5 səhifə (8 179 işarə) ibarətdir. Tədqiqat işinin ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr istisna olunmaqla 165 səhifə və 265 137 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli** “**Nigar Usubovanın yaradıcılıq səciyyəsi”** adlanır və iki paraqrafdan ibarətdir**. 1.1. “Nigar Usubovanın nəsil şəcərəsinin onun formalaşmasında təsiri**” adlanır. Bu paraqrafda Azərbaycanda fortepiano təhsilinin inkişafında böyük xidmətləri olan Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor, istedadlı pianoçu Nigar xanım Usubovanı formalaşdıran mühit, böyüyüb boya-başa çatdığı Qazax mahalının ziyalı şəxsiyyətləri kontekstində nəsil şəcərəsi araşdırılmışdır. N.Usubova nümayəndəsi olduğu nəslin ən mütərəqqi ənənələrini öz fəaliyyətində formalaşdırmağa çalışmışdır. Bu baxımdan onun nəsil şəcərəsi və təmsil etdiyi sülalənin nümayəndələrinin haqqında məlumatın verilməsi tədqiqat prosesi zamanı diqqət mərkəzində olmuşdur.

Nigar İbrahim qızı Usubova 2 may 1914-cü ildə Qazax rayonunun Salahlı kəndində anadan olmuşdur. Onun atası İbrahim ağa Usubov çar rus ordusunda general-mayor rütbəsində çalışırdı. Anası Gövhər xanım Qayıbova-Usubova 1903-cü ildə Tiflis Nücabə Qızlar Institutunu bitirmişdir və dövrünün savadlı ziyalı qadınlarından biri olmuşdur. N.Usubovanın nəsil şəcərəsini, onun bir çox görkəmli nümayəndələrini nəzərdən keçirib belə nəticəyə gəlmək olar ki, irsi faktorlar gələcəkdə görkəmli pianoçunun həyat və

yaradıcılıq fəaliyyətində əsas amil olmuşdur. N.Usubova həm nəsildən irəli gələn yüksək mənəvi dəyərlərə, həm də hər bir işə qarşı böyük məsuliyyət daşıması kimi keyfiyyətlərə malikdir. N.Usubovanın pedaqoji, ifaçılıq və musiqiçi kimi ictimai fəaliyyəti çox zəngin, rəngarəng və əhatəlidir. O, gözəl pianoçu və pedaqoq olmaqla yanaşı, həm də təşkilatçı, gözəl alim və yüksək intellektual mədəniyyətə malik bir şəxsiyyət olmuşdur. N.Usubovanın nüfuzlu müəllimlərindən əxz etdiyi və öz yaradıcılıq metodikasına əlavə etdiyi pedaqoji konsepsiyası var idi.

**1.2.** "**Nigar Usubovanın yaradıcılıq fəaliyyətinin formalaşması**" adlanır. Bu paraqrafda Nigar Usubovanın həyatının gənclik dövrü, təhsil illəri, bir pianoçu kimi formalaşması, pedaqoji və elmi fəaliyyəti, məsul vəzifələrdə çalışması və fəaliyyətinin digər sahələri araşdırılır. N.Usubovanın gəncliyi XX əsrin 30-cu illərinə təsadüf edir. Həmin illərdə Azərbaycanda pianoçuluq sənətinə böyük diqqət yetirilir. N.Usubova 1940-cı ildə konservatoriyanın fortepiano fakültəsində M.R.Brennerin sinfinə daxil olur. Özünə qarşı çox tələbkar olan Nigar xanım ifaçılığını inkişaf etdirmək üçün ciddi cəhd göstərirdi. Elə bunun nəticəsidir ki, 1947-ci ildə konservatoriyanın rektoru vəzifəsində çalışan Üzeyir Hacıbəylinin P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasında təhsillərini davam etdirməsi üçün göndərdiyi üç tələbədən biri Nigar Usubova olur. N.Usubova 1947-1952-ci illərdə Moskva Dövlət Konservatoriyasının aspiranturasında A.B.Qoldenveyzerin sinfində təhsil alır. 1952-ci ildə Moskva Dövlət Konservatoriyasının aspiranturasını bitirdikdən sonra Bakıya qayıdan Nigar xanım elə həmin ildə Azərbaycan Dövlət Konservatoriyasında müəllim kimi fəaliyyətə başlayır, əvvəl dosent əvəzi, bir qədər sonra dosent (1954), sonra isə professor adını alır. 1952-1970-ci illərdə elmi və tədris işləri üzrə prorektor vəzifəsində (qeyd etməliyik ki, 1952-ci ildə bu vəzifə elmi və tədris işləri üzrə direktor müavini adlanırdı), eyni zamanda 1959-1968-ci illərdə fortepiano kafedrasının müdiri vəzifəsində çalışır.

1970-ci ildən konservatoriyanın 1 №li fortepiano kafedrasının professoru kimi fəaliyyət göstərir və pedaqoji, ictimai işlərlə məşğul olur. Konservatoriya daxilində, respublikada, Zaqafqaziya üzrə keçirilən bir sıra ifaçılıq müsabiqələrinin münsiflər heyətinin üzvü

olmuşdur. Nigar xanımın şəxsi işində qeyd olunduğu kimi o, yeddi il sovet qadınları plenumunun (1958-1965), eləcə də xarici ölkələrlə (Hindistan) dostluq cəmiyyətinin plenumunun üzvü olmuşdur[15].

Nigar xanım iki "Şərəf nişanı" ordeni ilə mükafatlandırılmış (1959-cu və 1982-ci illər), dəfələrlə müsabiqələrin təşkili və yetirmələrinin respublika, Zaqafqaziya ümumittifaq müsabiqələrində uğurlu çıxışlarına görə konservatoriyanın müdiriyyəti tərəfindən təşəkkürnamələr və Fəxri Fərmanı ilə təltif olunmuşdur. 1960-cı ildə Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür. 1939-1947, 1953-1955, 1955-1957-ci illərdə Bakı Şəhər Sovetinin deputatı, 1967-1969-cu illərdə Sovet-Hind dostluğu komitəsinin plenimunun vitse-prezidenti seçilmişdir.

Onu da qeyd etməliyik ki, N.Usubova Azərbaycanda "sənətşünaslıq elmləri namizədi" alimlik dərəcəsinə layiq görülən ilk musiqiçi qadınlardan biridir. Onun rus bəstəkarı A.S.Arenskinin fortepiano yaradıcılığını araşdıran namizədlik dissertasiyası, həmçinin müəllimi A.B.Qoldenveyzerin pedaqoji prinsiplərinə, S.V.Raxmaninovun, A.S.Arenskinin fortepiano əsərlərinin ifaçılıq təhlilinə və Azərbaycanda musiqi təhsilinə həsr olunan elmi-metodik işləri N.Usubovanın bir alim kimi fəaliyyətini sübüt edir.

Dissertasiyanın **II fəsli "Nigar Usubovanin elmi fəaliyyətinin Azərbaycan musiqi təhsili sahəsinin inkişafinda əhəmiyyəti"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir.

**2.1. "A.S.Arenskinin yaradıcılığının Nigar Usubovanın elmi və elmi-metodiki fəaliyyətində tədqiqi"** adlanır. Bu paraqfrafda Nigar Usubovanın "sənətşünaslıq elmlər namizədi" adını almaq üçün elmi işinin onun şəxsi arxivindən əldə etdiyimiz əlyazmasına (P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası, 1952-ci il) əsaslanaraq dissertasiyası və onun iki bölmədən ibarət olan A.B.Qoldenveyzerin bir sıra pedaqoji və ifaçılıq prinsipləri haqqında metodik işi, eləcə də A.S.Arenskinin fortepiano əsərlərinin ifasına dair metodik tövsiyələri araşdırılır. Qeyd edək ki, N.Usubovanın dissertasiyasının titul vərəqində tədqiqatın iki hissədən ibarət olduğu qeyd olunur:

---

[15] Усубова, Н.И. Личный архив // Архив Бакинской Музыкальной Академии им. У.Гаджибейли, Фонд № 1, архив № 2, папка № 28 (8), работа № 20, лист – 293.

1. İfaçılıq hissəsi:

A.S.Arenski və S.V.Raxmaninovun əsərlərindən ibarət konsert proqramı

2. Nəzəri hissə:

A.S.Arenskinin fortepiano əsərləri və onların ifası.

Titul vərəqində nəzəri hissə üzrə elmi rəhbər – sənətşünaslıq doktoru, professor A.B.Qoldenveyzer, məsləhətçi- sənətşünaslıq doktoru, professor A.A.Nikolayev qeyd edilib.

Nigar Usubovanın namizədlik dissertasiyasının quruluşu belədir:

1. Giriş;
2. I fəsil – Yaradıcılıq yolu;
3. II fəsil – A.S.Arenskinin fortepiano əsərlərinin ümumi səciyyəsi;
4. III fəsil – A.S.Arenskinin bir sıra əsərlərinin professor A.B.Qoldenveyzerin göstərişləri əsasında ifası;
5. Sonda isə istifadə edilmiş ədəbiyyat siyahısı verilir[16].

N.Usubovanın tədqiqatının I fəslində A.S.Arenskinin Moskva Konservatoriyasındakı pedaqoji fəaliyyətinə, ensiklopediya fənninin (hal-hazırda formaların təhlili) tədrisində özünəməxsus metodikasına geniş yer verilir. Onun dissertasiyasının II fəsli A.S.Arenskinin fortepiano yaradıcılığının ümumi səciyyəsinə həsr olunmuşdur. Tədqiqatın çox yığcam girişində Nigar xanım A.S.Arenskinin – rus klassik musiqisinin ən gözəl ənənələrinin davamçısının böyük tarixi əhəmiyyətini və fortepiano musiqisinin xüsusiyyətlərini açıqlayır.

Professor N.Usubovanın rus bəstəkarı A.S.Arenskinin fortepiano yaradıcılığına həsr olunmuş metodik işi[17] 1987-1988-ci illərə aiddir. N.Usubovanın bu işi metodik tövsiyələr kimi nəzərdə tutulmuşdur. Nəzərə çatdıraq ki, N.Usubovanın müəllimi

---

[16] Усубова, Н.И. Концертная программа из произведений А.С.Аренского и С.В.Рахманинова. Исполнительская и теоретическая часть: / дис. доктора философии по искусствоведению. / – Москва, 1952. – 176 с. // Архив Бакинской Музыкальной Академии им. У.Гаджибейли, Фонд № 1, архив № 2, папка № 28 (8), работа № 20.з., лист – 84.

[17] Усубова, Н.И. Фортепианное творчество Аренского. Методическая работа 1987 г. // Архив Бакинской Музыкальной Академии им. У.Гаджибейли, Фонд № 1, архив № 2, папка № 28 (8), работа № 20.е., лист – 27.

A.B.Qoldenveyzerin rəhbərliyi altında işlədiyi namizədlik dissertasiyası da A.S.Arenskinin fortepiano yaradıcılığına həsr olunmuşdur. N.Usubova A.S.Arenskinin rus musiqisindəki rolu və əhəmiyyəti haqqında dəfələrlə öz elmi və metodik işlərində dəyərli fikirlər söyləmiş, bəstəkarın fortepiano əsərlərinin ifa xüsusiyyətləri haqqında maraqlı məsləhətlər və tövsiyələr vermişdir.

1970-ci illərin ikinci yarısında N.Usubova Azərbaycanda musiqi təhsili problemləri üzərində işləyir. Bu işin birinci bölməsi (1974-cü il) respublikada musiqi təhsilinin orta mərhələsini əhatə edir və Bakı, Sumqayıt şəhərlərində yerləşən orta ixtisas təhsili verən musiqi məktəblərində təhsil və tədrisin bir sıra məsələlərini əhatə edir[18]. Burada müxtəlif ixtisaslar üzrə şöbələrin işi təhlil edilir, nöqsanları və onları aradan qaldırmaq üçün təkliflər qeyd olunur. Musiqi təhsilinə dair işin ikinci bölməsində 1977-80-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil və tədris, ifaçılıq məsələləri haqqında ətraflı məlumatlar verilir, bir sıra aktual məsələlərə toxunulur. Həmin dövrdə N.Usubovanın elmi-metodik işlərindən biri də ali təhsil müəssisələrinin əməkdaşlığı məsələlərinə həsr olunub və Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının Moskva və Leninqrad konservatoriyaları ilə yaradıcılıq əlaqələri məsələlərindən bəhs edir. 1970-ci illərdə N.Usubova nəinki konservatoriya çərçivəsində, eyni zamanda təhsilin orta mərhələsində pedaqoqika, metodika ilə bağlı bir sıra maraqlı mülahizələrdən ibarət elmi-metodik işlər üzərində işləyir.

**2.2. "A.B.Qoldenveyzerin bir sıra pedaqoji prinsiplərinə dair Nigar Usubovanın elmi axtarışları"** adlanır. N.Usubova beş il ərzində sıx ünsiyyətdə olduğu müəllimi, qeyri-adi, hərtərəfli erudisiyaya, sonsuz biliklərə malik olan professor A.B.Qoldenveyzerin bir sıra pedaqoji prinsipləri haqqında elmi axtarışlarını və mülahizələrini 1980-ci illərdə işlədiyi öz yazılarında cəmləşdirmişdir. N.Usubovanın bu işi yazmaqda məqsədi müəllimi

[18] Усубова, Н.И. О музыкальном образовании в Азербайджане. Раздел: Азербайджанская ордена Трудового Красного Знамени Государственная Консерватория имени Узеира Гаджибекова (период 1977-1980 годы). Методические записки // Архив Бакинской Музыкальной Академии им.У.Гаджибейли, Фонд № 1, архив № 2, папка № 28 (8), работа № 20.г., лист – 31.

A.B.Qoldenveyzeri böyük musiqiçi kimi dəyərləndirmək və onun fortepiano məktəbi, ifa mədəniyyəti haqqında yüksək fikirləri işıqlandırmaq olmuşdur[19]. N.Usubova müəllimi haqqında yeni bir söz demək fikrində olmadığını, sadəcə onun fikirlərini şərh etmək istədiyini vurğulamışdır. Bu zaman N.Usubova əsas məqsədinin onunla ünsiyyət və söhbətlərindən bəhs etmək olduğunu bildirmiş, A.B.Qoldenveyzerin musiqi tərbiyəsinin dərk olunması haqqında açıqlamalar vermiş və bu şəxsiyyət barəsində fikirlərini ümumiləşdirməyə çalışmışdır.

Nigar Usubova öz müəlliminin böyük sənətkarlığını ilk növbədə onun böyük məktəb keçməsi ilə əlaqələndirir. Bu fikrini dərinləşdirmək üçün Aleksandr Borisoviç Qoldenveyzerin pianoçu və bəstəkar V.P.Prokunin, V.İ.Safonov, A.İ.Ziloti və P.A.Pabsdan dərs almasını xüsusilə nəzərə çatdırmışdır. Bəstəkarlıq üzrə S.Taneyev və A.Arenskinin sinfində oxumasını, eləcə də P.İ.Çaykovskinin də ona böyük təsiri etməsini vurğulamışdır. Nigar xanım hesab edirdi ki, A.B.Qoldenveyzerin musiqi prinsipləri bu zəmində yaranaraq, onun özünəməxsus ənənələrini formalaşdırmışdır.

İlk növbədə N.Usubova müəlliminin qeyri-adi kompleksini, onun biliyinin geniş miqyasının insanları özünə məftun etməsini vurğulayaraq, A.B.Qoldenveyzerin bir şəxsiyyət kimi açılmasına öz işində önəmli yer verirdi. N.Usubova müəlliminin repertuar seçimindən bəhs edərək, ilk növbədə rus bəstəkarlarının, xüsusən A.Arenskinin yaradıcılığına marağını vurğulayır. A.B.Qoldenveyzerin özünün bəstələdiyi fortepiano əsərləri, romanslar, kamera-instrumental musiqi təbii həzinliyi, sadəliyi ilə fərqlənərək, rus bəstəkarlarının üslubuna çox yaxın idi. Onun A.B.Qoldenveyzerə həsr olunmuş metodiki işlərində bu böyük musiqiçi haqqında, onun ifa mədəniyyəti, fortepiano məktəbi barəsində maraqlı mülahizələr irəli sürülür. Müəllimi ilə sıx yaradıcılıq ünsiyyəti, onun sinfində topladığı təcrübə və metodika

---

[19] Усубова, Н.И. О некоторых педагогических принципах народного артиста СССР, профессора А.Б.Гольденвейзера. Раздел I. Методические записки // Архив Бакинской Музыкальной Академии им. У.Гаджибейли, Фонд № 1 , архив № 2, папка № 28 (8), работа № 20.а., лист – 38.

N.Usubovanın metodik tövsiyələrində öz təcəssümünü tapmışdır. 1986-cı ildə yazdığı digər metodik iş S.Raxmaninovun “Korelli mövzusuna variasiyalar” əsərinin ifaçılıq təhlilinə həsr olunmuşdur və Nigar xanım A.B.Qoldenveyzerin sinfində bu əsərin interpretasiyasından bəhrələndiyi prinsipləri açaraq onun tövsiyələrinə söykənir. N.Usubova bu əsərin ifaçılıq təhlilində A.B.Qoldenveyzerin sinfində apardığı qeydlərə əsaslandığını açıqlamışdır. Metodik iş iki bölmədən ibarətdir. Birinci bölmə sırf analitik xarakter daşıyır və S.Raxmaninovun əsərinin təhlilinə əsaslanır. ikinci bölmə isə A.B.Qoldenveyzerin ifa prinsiplərinə və metodik tövsiyələrinə həsr olunmuşdur.

**2.3. “Nigar Usubovanın Azərbaycanda musiqi təhsilinə dair elmi baxışları”** adlanır. Nigar Usubova bütün fəaliyyəti boyu bir çox ifaçılar yetirməklə yanaşı konservatoriyada daim maarifçilik işləri aparmış, respublikada təhsilin və tədrisin inkişafına dair öz faydalı məsləhətlərini vermişdir. Onun metodik işləri bir neçə bölmədən ibarət olub, təhsilin müxtəlif mərhələlərini əhatə edir.

Elmi tövsiyələrin birinci bölməsi 1973-1975-ci illərdə Bakı və Sumqayıt şəhərlərindəki musiqi texnikumlarında tədrisi və təhsili əhatə edirdi. Bu elmi tövsiyələrdə tədris müəssisələrinin fəaliyyəti təhlil olunur. Təhsilin orta mərhələsini əhatə edən texnikumlarla konservatoriyanın yaradıcılıq əlaqələri və himayəçilik işi ətraflı şəkildə açılır.

Elmi mülahizələrin ikinci bölməsi isə belə adlanır: *“Qırmızı Əmək Bayrağı” ordenli Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının 1977-1980-cı illərə aid olan çoxşaxəli fəaliyyəti haqda professor N.Usubovanın metodik xarakterli müraciəti”*[20]. 1977-1980-cı illərdə konservatoriyanın məzunlarının yüksək bilik səviyyəsi, ifaçılıq mədəniyyətinin daha da yüksəldilməsi üçün görülən işlər, tələbələrin əldə etdikləri böyük nailiyyətlər, digər

[20] Усубова, Н.И. О музыкальном образовании в Азербайджане. Раздел: Азербайджанская ордена Трудового Красного Знамени Государственная Консерватория имени Узеира Гаджибекова (период 1977-1980 годы). Методические записки // Архив Бакинской Музыкальной Академии им.У.Гаджибейли, Фонд № 1, архив № 2, папка № 28 (8), работа № 20.г., лист – 31.

respublikaların ali təhsil müəssisələri ilə sıx yaradıcılıq əməkdaşlığı N.Usubovanın müraciətində xüsusilə vurğulanır.

N.Usubova Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının 1977-1980-ci illərdəki fəaliyyətinin əsas istiqamətlərini belə müəyyənləşdirir:

*–"Aktual əhəmiyyət daşıyan elmi tədqiqatlar, monoqrafiyalar, digər elmi işlərin aparılması;*

*–Geniş müzakirə olunan dərsliklər, tədris vəsaitləri, metodik tövsiyələr, göstərici dərslərin təşkil olunması;*

*–Müasir xalq yaradıcılığının ən yaxşı nümunələrinin toplanması, sistemləşdirilməsi və işlənməsi;*

*–Tədris müəssisələri üçün nəzərdə tutulan müxtəlif janrlarda pedaqoji və konsert repertuarına yararlı olan yeni musiqi əsərlərinin yaradılması;*

*–Müxtəlif dövr və üslubları təmsil edən əsərlərin, eləcə də sovet bəstəkarlarının əsərlərinin ifa olunması və konservatoriyanın tələbə və müəllimlərinin solo və ansambl konsertlərinin keçirilməsi;*

*–Bəstəkarlar, ifaçılar və musiqişünasların yaradıcılığı üzrə musiqi-tənqidi məqalələrin yazılması"*[21].

Tələbələrin fəallığını və dünyagörüşünü artırmaq məqsədilə N.Usubova digər konservatoriyalardan məşhur mütəxəssislərin mühazirələr oxumağa və açıq dərslər aparmağa dəvət edilməsini çox yüksək qiymətləndirir.

N.Usubovanın "Azərbaycanda musiqi təhsili" haqqında elmi-praktiki tövsiyələrinin aparıcı xəttini mühüm problem kimi mütəxəssislərin buraxılışının keyfiyyəti və bununla yanaşı müəllimin özünün yaradıcılıq yüksəlişi və mənəvi xarakteri önəmliliyi təşkil edir.

Dissertasiyanın **III fəsli "Fortepiano üçün yazılmış əsərlərin öyrənilməsində Nigar Usubovanın ifaçılıq və pedaqoji fəaliyyəti"** adlanır. Bu fəsil beş paraqrafdan ibarətdir və Nigar xanımın müxtəlif

---

[21] Усубова, Н.И. О музыкальном образовании в Азербайджане. Раздел: Азербайджанская ордена Трудового Красного Знамени Государственная Консерватория имени Узеира Гаджибекова (период 1977-1980 годы). Методические записки // Архив Бакинской Музыкальной Академии им.У.Гаджибейли, Фонд № 1, архив № 2, папка № 28 (8), работа № 20.г., лист – 31.

metodikası əsasında müxtəlif cərəyanları təmsil edən bəstəkarların fortepiano əsərlərinin ifaçılıq prinsiplərinin öyrənilməsi araşdırılır.

**3.1. "Nigar Usubovanın metodikası əsasında polifonik əsərlərin öyrənilməsi (İ.S.Bax, D.D.Şostakoviç, S.İ.Taneyev)"** adlanır. Bir pedaqoq kimi N.Usubova müxtəlif dövrləri təmsil edən bəstəkarların polifonik əsərlərinə müraciət edərək onları özünəməxsus pedaqoji prinsiplər əsasında tələbələrinə öyrətməyə nail olmuşdur. N.Usubovanın pedaqoji repertuarında xüsusilə İ.S.Bax, D.D.Şostakoviç və S.İ.Taneyevin polifonik əsərləri üstünlük təşkil edir. İ.S.Baxın "Yaxşı temperasiyalı klavir" məcmuəsindən bir sıra prelüd və fuqaların tədrisi ətrafında N.Usubovanın tövsiyələri ilə bağlı onun tələbələri ilə müsahibələrdən belə məlum olur ki, əsas diqqəti obraz səciyyəsinə yönəldirdi. O, hətta prelüd və fuqaları ən məşhur ifaçıların ifasında dinlədikdə belə, məzmun haqqında ümumi təsəvvürün yaradılması əsas yer tuturdu. Sonra isə mətn üzərində iş başlanırdı. Əsas məqsəd ifaçının bəstəkarla mənəvi təmasının yaradılması, İ.S.Bax musiqisinin möhtəşəmliyi, bənzərsizliyi, təkrarsızlığının hiss edilməsi və dərk olunması idi. Sonra İ.S.Baxın üslubunun əsas cizgilərini yaratmaq üzərində iş başlanırdı. Aydın, sadə və təbii çalğının olması Nigar xanımın əsas metodik tövsiyələrindən olmuşdur.

D.Şostakoviçin "24 prelüd və fuqa" silsiləsinə pedaqoji repertuarda daim üstünlük verən N.Usubova bu bəstəkarı dahi sənətkar kimi səciyyələndirərək, silsilədəki hər prelüd və fuqanı möcüzə hesab edirdi. O, gənc ifaçılara D.Şostakoviçin musiqisi ilə mənəvi təması yaratmağı aşılayırdı. Hər prelüd və fuqanın ifası zamanı səslərin qırılmamasından ötrü notların uzadılmasına riayət etməyi əsas tələbat kimi irəli sürən Nigar xanım fortepianoda hər səsə "vokal" münasibət bəsləməyi tövsiyə edirdi.

D.Şostakoviçin "24 prelüd və fuqa" silsiləsinin tədris müəssisələrində adətən sırf tədris materialı kimi repertuara daxil edilməsindən fərqli olaraq, Nigar xanım onların bədii interpretasiyasını verir və silsilənin əsl konsert səviyyəsində işlənməsini töbsiyə edirdi.

Nigar xanımın sevdiyi polifonik əsərlər sırasına S.Taneyevin gis-moll "Prelüd və fuqa"sı (op.29, 1910-cu il) daxildir. Nadir

hallarda ifaçıların repertuarına daxil edilən, çox mürəkkəb fəlsəfi məzmuna və simfonik imkişafa malik bu prelüd və fuqanın tələbələr tərəfindən ifa edilməsi müəyyən məqsədlər daşıyırdı. N.Usubova lirik mahnıvari üslublu prelüdü ifaçıdan virtuozluq və yüksək texnika ilə ifa etməsini tələb edirdi. Fuqanı isə əsl konsert pyesi kimi şərh edirək öyrədirdi.

**3.2. "Romantizm dövrü bəstəkarlarının fortepiano əsərlərinin ifaçılıq prinsiplərinə dair Nigar Usubovanın praktik göstərişləri (F.List, İ.Brams)"** adlanır. Yetkin romantizmə xas olan ən gözəl cəhətləri özündə birləşdirən F.Listin ziddiyyətliliyi, janr və formalara münasibətdə novatorluğu, İ.Bramsın fortepiano əsərlərində isə klassik ənənələrə əsaslanan quruluşla çılğın obrazların həmahəngliyi N.Usubovanın pedaqoji axtarışlarına uyğun idi.

Nigar xanımın yetirmələri ilə müsahibələrdə onun ifa proqramında romantizm dövrü bəstəkarlarından daha çox Ferens Listin fortepiano musiqisinə önəm verməsi vurğulandı. Nigar xanım F.Listin əsərlərinin ifası zamanı temp, dinamika, hər bir aksent, pedal, səs effektləri tam yeni məna kəsb etməsi fikrini bildirirdi.

Fortepiano ilə simfonik orkestr üçün 1№li konsertin (Es-dur, op.124) artıq ilk xanələri üzərində işə başlayarkən Nigar xanım təntənəli, qəhrəmani xarakterli qısa orkestr mövzusundan sonra pianoçunun ifasında səslənən möhtəşəm oktavalar üzərində dəfələrlə məşq edirdi: *"Bu epizodda əllərin yorulmasına qəti yol vermək olmaz. Təntənəli və möhtəşəm oktavaları ağırlaşmış deyil, emosional ifa etmək lazımdır"*[22]. Eyni zamanda not mətninə, ritmik çətinliklərə və frazalaşmaya diqqət yetirirdi. Konsertdə solistin orkestr partiyası ilə növbələşməsi ətrafında Nigar xanımın maraqlı tövsiyələri var idi.

N.Usubovanın tələbələrinin repertuarında alman bəstəkarı İohannes Bramsın əsərlərinə mühüm yer verilirdi. İ.Bramsın əsərlərində həmişə səs üzərində işə, alətin oxumasına və melodikliyə N.Usubova xüsusi diqqət yetirirdi.

Nigar xanımın İ.Bramsın fortepiano və orkestr üçün 1 №li konsertinin ifasında ilk növbədə konsertin melodikliyini və bundan

[22] Eyvazzadə, G.A. Professor Nigar Usubovanın F.Listin fortepiano əsərlərinin ifaçılıq prinsiplərinə dair bir sıra praktiki tövsiyələri // – Bakı: Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, – 2018. № 2 (4), – s.82.-83.

irəli gələn səs üzərində işi çox vurğulayırdı. Nigar xanımın ifa haqqında vurğuladığı əsas məqamlardan biri də konsertin hər hissəsində pianoçunun səs üzərində işə müxtəlif prizmalardan yanaşmasıdır. Belə ki, Nigar xanımın tövsiyələrinə əsasən, konsertin birinci hissəsində lirika və dramatizmin qovuşmasına, ikinci hissədə dərin lirikanın hərtərəfli təcəssümünə, şən nikbin məzmunlu finalda məzmunun tam göstərilməsinə və bütün ahənglərə diqqət yetirilməlidir.

**3.3. "Fransız impressionizmi və rus yeni klassisizminə ifaçılıq xüsusiyyətləri Nigar Usubovanın metodikası əsasında (M.Ravel, S.S.Prokofyev)"** adlanır. Nigar xanımın pedaqoji repertuarında iki müxtəlif musiqi üslubuna malik olan bəstəkarın – M.Ravelin və S.Prokofyevin konsertləri mühüm yer tutmuşdur.

Tələbələri ilə müsahibələrdən məlum olur ki, Nigar xanım repertuar seçimində hər bir tələbənin fərdi zövqünü nəzərə alır və eyni zamanda onun öz fikirlərini ifadə etməsi üçün imkan yaradırdı. Bu baxımdan N.Usubovanın pedaqoji repertuarında impressionizm cərəyanının nümayəndəsi olan Moris Ravelin fortepiano və orkestr üçün G-dur konserti xüsusi əhəmiyyət kəsb edir.

M.Ravelin G-dur konsertində fortepiano ifaçılığı xüsusiyyətləri klassik ənənələrə əsaslandığı üçün N.Usubova bu əsərə müraciət etmişdir. N.Usubovanı burada ilk cəlb edən fortepiano fakturasının qeyri-adi tərzdə sadəliyidir. Bu sadəlik bəstəkarın erkən əsərlərinin faktura şəffaflığını xatırladır. Tələbəsi və sonra Nigar xanımın assistenti olmuş Zemfira Şəfiyeva N.Usubovanın konsertin bu xüsusiyyətinə yanaşmasını belə izah edirdi: *"Nigar xanım iş prosesi zamanı dəfələrlə vurğulayırdı ki, bu sadəliyin daxilində bəstəkarın ciddi yanaşmasını ifadə etmək istəyini vurğulamaq mütləqdir"*[23]. Konsertdə neoklassisizmə xas olan xüsusiyyətlər də nəzərə çarpır. Nigar xanım bu konsertin ifası zamanı fortepiano alətinin tembr xüsusiyyətlərinin mükəmməlliyini, solist və orkestr arasında olan münasibətlərin dərindən vurğulanmasını göstərməyi tələb edirdi.

---

[23] Eyvazzadə, G.A. Professor Nigar Usubovanın pedaqoji repertuarında konsert janrının ifaçılıq prinsiplərinə dair praktik göstərişləri // – Naxçıvan: Axtarışlar, – 2022. № 2 (42), – s.184.

Məlumdur ki, S.Prokofyevin fortepiano və orkestr üçün Des-dur konserti həcmcə çox yığcamdır və cəmi 15 dəqiqə ərzində səslənir. Nigar xanım konsertdə S.Prokofyev musiqisi üçün səciyyəvi olan hərəkət tempini saxlamağa çalışırdı və Prokofyevsayağı tərzdə fortepianoya zərb aləti kimi yanaşmağı da tövsiyə edirdi. Nigar xanım bildirirdi ki, kəskin səslənişə nail olmaq üçün mütləq şəkildə fortepiano alətini konsertin obraz-emosional məzmununa uyğunlaşdırmaq vacibdir.

**3.4. "Müasir Qərb meylləri istiqamətində ifaçılıq təcrübəsi Nigar Usubovanın şərhində (N.Metner, S.Barber)"** adlanır.

N.Metnerin fortepiano və orkestr üçün №2 konserti (c moll) tutqun, möhtəşəm, patetik xarakterə malikdir. Nigar xanım konsertin fakturasında zəng səsləri effektini duymağı və ifa zamanı bütün bunları nəzərə almağı tövsiyə edirdi. Nigar xanım hesab edirdi ki, əsəri ifa edən pianoçu texniki baxımdan yüksək hazırlıqlı olmalıdır və konsertin dəyişkən xarakterini duymağı bacarmalıdır. N.Metnerin fortepiano və orkestr üçün №2 konserti tam və püxtələşmiş ifaçılıq imkanlarına malik olmanı tələb edir. Konsertin ifası zamanı pianoçu texniki səviyyəsini formalaşdırmalı və eyni zamanda möhtəşəm ruhu duymağı bacarmalıdır. Nigar xanımın tələbələrinin söylədiklərinə əsasən, o, konsertin parlaq və koloristik şəkildə ifa olunmasını tövsiyə edirdi. Xüsusilə, dinamik işarələrdən ehtiyatla və lazım olduqda istifadə edilməsinə diqqət verirdi. O, kulminasiya anlarında not mətnində olan dinamik işarələrin düzgün səslənməsinə çalışırdı. Nigar xanım bunu belə izah edirdi ki, əsərdə hər hansı dinamik işarənin vaxtında səslənməməsi kulminasiyanın gecikməsinə səbəb ola bilər. Eyni zamanda Nigar xanım konsertdə piano ahəngini də romantizm bəstəkarlarında olduğu kimi lirik və aydın şəkildə deyil, daha enerjili səsləndirməyi məsləhət görürdü.

Nigar xanımın pedaqoji repertuara Amerika bəstəkarı, dünya şöhrətli Semyuel Barberin fortepiano üçün sonatasını (1948-ci il, es-moll, op.26) daxil etməsi onun müasir Qərb musiqisinə marağını nümayiş etdirir. S.Barberin sonatasında fortepianonun texniki imkanlarının virtuoz ifadəsi, ritmik çətinliklər, səs materialının melodik dolğunluğu, dinamika və aqogika, finalda ifa baxımından çox mürəkkəb caz ünsürləri – bütün bunlar ifaçıdan böyük bacarıq tələb

edir. Tələbələri ilə müsahibələrdən məlum olur ki, Nigar xanim bu müasir əsər üzərində işləyərkən ilk növbədə S.Barberin musiqiçi kimi öz dünyası və zəngin mənəviyyatı olan sənətkar olmasını vurğulayırdı. Nigar xanım ilk məşğələlərdə sonatanın səs, dinamik və tembr xüsusiyyətləri üzərində işləməklə yanaşı, ifa zamanı diqqəti ritm və metrin tez-tez növbələşməsinə yönəldərək vahid ritmik nəbzin saxlanılmasını vurğulayırdı. Əsərin not mətnini tam dəqiq işlədikdən sonra Nigar xanım sonatanın fakturasına diqqət yetirməyi tövsiyə edirdi. S.Barberin sonatasında ritm və fakturanın bağlılığı bütün hissələrdə aydın nəzərə çarpır. N.Usubovanın müasir Qərb meyllərini özündə əks etdirən əsəri pedaqoji repertuara daxil etməsini o dövr üçün cəsarətli addım kimi dəyərləndirmək mümkündür.

**3.5. "Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinin oyrənilməsinə dair Nigar Usubovanın praktik göstərişləri (Q.Qarayev, M.Mirzəyev)"** adlanır. İstedadlı pianoçu, professor Nigar xanım Usubova öz pedaqoji fəaliyyətində Azərbaycan bəstəkarlarının əsərlərinə çox önəm verirdi. Dahi bəstəkar Q.Qarayevin "Tsarskoye selo heykəli" adlı orijinal pyesi (1937), eləcə də 1951-1963-cü illərdə yaranıb ərsəyə gələn dörd dəftərdən ibarət "24 prelüd" silsiləsi N.Usubovanın tələbələrinin ifa proqramında mühüm yer tuturdu.

Q.Qarayevin "Tsarskoye selo heykəli" pyesini professor, Xalq artisti Yeganə Axundova vaxtilə Nigar Usubovanın sinfində oxuyarkən ifa etmişdir. Yeganə Axundova pyesi açan dissonans ilk giriş akkordundan bəhs edərək, Nigar xanımın tövsiyəsini belə xatırlayır: *"Bu akkord səhəngin sınmasını təsvir edir. Əli yuxarıdan endirərək, barmaqların ucunu itiləşdirib bu akkordu göstərməliyik"*[24]. Ümumiyyətlə, pyesin ifası zamanı Nigar xanım əsərin sərbəst uslubda olmasını və buna görə də əhvali-ruhiyyənin tez-tez dəyişməsini nəzərə alırdı.

Məlum olduğu kimi, Q.Qarayevin "24 prelüd" silsiləsi dörd dəftərdən ibarət olub, ardıcıl deyil, müxtəlif illərdə yaranmışdır. Prelüdlərin üçüncü dəftərinin səciyyəvi xüsusiyyəti isə musiqi dili və

---

[24] Eyvazzadə, G.A. Professor Nigar Usubovanın pedaqoji fəaliyyətində Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinin öyrənilməsinə dair praktik göstərişlər // – Bakı: Mədəniyyət.az, – 2019. №2, – s.75.

formasının mürəkkəbliyi, milli köklərlə aşkar bağlılığıdır. Bu baxımdan N.Usubova pedaqoji repertuarda Q.Qarayevin “24 prelüd” silsiləsindən üçüncü dəftərə daha çox üstünlük vermişdir. Belə ki, prelüdlərin üçüncü dəftəri obraz məzmunu, faktura xüsusiyyətləri etibarilə çox fərqlənir. Onların musiqi dili, buradakı texniki üsullar əvvəlki iki dəftərlə müqayisədə daha mürəkkəbdir. N.Usubova prelüdlərin müəllifin yerləşdirdiyi sırada ardıcıl ifasını dramaturji baxımdan çox qənaətbəxş hesab edirdi. Onun prelüdlərin ifasında ən zəruri hesab etdiyi üç cəhət mövcud idi: obrazlar aləmi, bədiilik və xarakterin verilməsi. Sonra əsas diqqət rəngarəng faktura palitrasına, not mətninə, temp və dinamika, pedal üzərində işə yönəldilirdi.

Musa Mirzəyevin “Sonata-kapriççio”su virtuoz və hazırlıqlı, mükəmməl pianoçulara ünvanlanmışdır. Əsərin ilk ifaçısı Azərbaycanın Əməkdar artisti, professor, pianoçu Rafiq Quliyev olmuşdur. Bu əsərin ifası zamanı N.Usubovanın əsas tövsiyəsi daim ritmik nəbzi saxlamaq fikri olmuşdur. Digər mühüm tövsiyə əsas və köməkçi partiyaların (əsər güzgülü reprizalı sonata formasındadır) təzadının göstərilməsi idi. Fəal, cəsarətli xarakterli əsas partiya ilə müqayisədə köməkçi partiya bir qədər sərbəst, improvizə xarakteri daşımalı, daha yüngül səslənməlidir. Kapriççionun ifasında Nigar xanım fakturanın qənaətcilliyini göstərir, bu fonda səs üzərində diqqətlə işləməyi tövsiyə edirdi.

Azərbaycan bəstəkarlarının fortepiano musiqisi N.Usubovanın pedaqoji fəaliyyətində daim diqqət mərkəzində olmuşdur. O, təhlil edib araşdırdığımız əsərlərlə yanaşı, C.Hacıyev, F.Əmirov, E.Nəzirova və başqa bəstəkarların yaradıcılığına da müraciət etmişdir.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir. Nəzərə çatdırılır ki, Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor, istedadlı pianoçu Nigar xanım Usubovanın zəngin elmi-pedaqoji fəaliyyəti özünəməxsus səciyyəvi cəhətləri ilə fərqlənir. Bu keyfiyyətlər Nigar xanımın Azərbaycan musiqi təhsili və fortepiano ifaçılığı sahəsinin inkişafında müstəsna xidmətlərini səciyyələndirir.

Müəllimi A.B.Qoldenveyzerin pedaqoji prinsiplərini davam etdirən N.Usubova bura öz şəxsi təcrübəsindən yaranan mülahizələri də daxil edərək, Azərbaycanda musiqi təhsili sisteminin

formalaşması istiqamətində öz yanaşmalarını təqdim etmişdir. N.Usubovanın Azərbaycanda musiqi təhsili ilə bağlı elmi-praktiki tövsiyələri savadlı və yüksək keyfiyyətlərə malik olan professional kadrların formalaşdırılmasına istiqamətlənmişdir. Fortepiano üçün yazılmış əsərlərin öyrənilməsi metodikasının praktiki xüsusiyyətləri kimi hərtərəfli pedaqoji repertuara üstünlük verməsi, hər bir əsərə yanaşma prinsipləri, texniki imkanlar əsasında gözəl səslənmə ahəngi yaratması və hər bir ifaçı-tələbəyə fərdi münasibət göstərməsi N.Usubovanın pedaqoji axtarışlarının mühüm obyekti kimi dəyərləndirilmişdir.

Araşdırılan mövzu ilə bağlı aşağıdakı qənaətlər əldə olunmuşdur:

1. N.Usubovanın formalaşmasında onun nəsil şəcərəsinin mühüm təsiri olmuşdur;
2. N.Usubova rus fortepiano ifaçılığı ənənələrini davam etdirərək elmi baxışlarını və metodiki prinsiplərini formalaşdırmışdır;
3. N.Usubova Azərbaycan musiqi təhsili sahəsinin inkişafına dair elmi-metodiki baxışlarını müəyyənləşdirmiş və bunların həyata keçirilməsi istiqamətində çalışmışdır;
4. N.Usubovanın tələbələrlə iş prosesi özünəməxsus metodiki prinsiplərə əsaslanmış və o, klassik ənənələrə əsaslanan öz pedaqoji yanaşmalarını da nümayiş etdirmişdir;
5. N.Usubovanın pedaqoji fəaliyyətində müxtəlif dövrləri və cərəyanları təmsil edən bəstəkarların əsərlərinin ifaçılıq xüsusiyyətlərinə dair praktik göstərişləri və tövsiyələri araşdırılmışdır;
6. N.Usubovanın pedaqoji metodikasının xüsusiyyətləri müəyyənləşdirilmiş və tələbələrinin fikirlərinə istinadən əsaslandırılmışdır.

Tədqiqat işində Nigar Usubovanın sinfini bitirən və onun pedaqoji prinsiplərini öz fəaliyyətlərində nümayiş etdirən bir çox pianoçularla əlaqə saxlanılmışdır. Hazırda milli ifaçılıq sənətinin ən tanınmış nümayəndəsi olan Xalq artisti Yeganə Axundova, həmçinin Həqiqət Məhərrəmova, Zemfira Şəfiyeva, Firəngiz Hacıyeva, İrina Nəcəfəliyeva, Elmira Musayeva, Əfqan Salayev, Dilarə Müslümzadə, Mədinə Cəbrayılova, Tamella Əhmədova, Natəvan Faiq və digərləri

ölkəmizlə yanaşı, beynəlxalq aləmdə də fəaliyyətlərini davam etdirərək, Nigar Usubovanın pedaqoji prinsiplərini layiqincə tətbiq edirlər.

Beləliklə, görkəmli pedaqoq N.Usubovanın hərtərəfli fəaliyyətinin araşdırılması belə bir nəticəyə gəlməyə əsas verir ki, onun bütün yaradıcılığı Azərbaycanda musiqi təhsili və ifaçılığının inkişaf etdirilməsinə yönəlmişdir. Bu gün Nigar Usubovanın dəyərli tövsiyələri onun tələbələrinin fəaliyyətində öz təsdiqini tapmışdır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. Eyvazzadə, G.A. 1973-1975-ci illərdə Bakı və Sumqayıt şəhərlərindəki musiqi texnikumlarında təhsilə dair professor Nigar Usubovanın mülahizələri // Doktorant və gənc tədqiqatçıların XVII Respublika elmi konfransın materialları, – Bakı: – 18 dekabr, 2012, – s. 247-248.
2. Eyvazzadə, G.A. Azərbaycanda musiqi təhsilinə dair professor Nigar Usubovanın elmi baxışları (II hissə. 1977-80-ci illər) // – Bakı: Musiqi dünyası, – 2013. № 4 (57), – s. 74-77.
3. Eyvazzadə, G.A. A.B.Qoldenveyzerin bir sıra pedaqoji prinsiplərinə dair professor Nigar Usubovanın düşüncələri // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemlər" XIII Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 17 mart, 2014, – s.106-109.
4. Eyvazzadə, G.A. Professor Nigar Usubovanın şərhində S.Barberin fortepiano sonatası üzərində ifaçılıq tövsiyələri [Elektron resurs] // – Bakı: Harmony, – 2016. № 15. – s.1-7. URL: http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=753&s=1&iss=27
5. Eyvazzadə, G.A. Prof. Nigar Üsubova`nın pedagojik ifaçılık ilkeleri- Professor Nigar Üsubovanın A.B.Qoldenveyzerin bir sıra pedaqoji ifaçılıq prinsipləri təqdimatına dair elmi araşdırmaları // III Uluslarası Müzik ve Dans Kongresi, – Marmaris: – 20-22 ekim, 2017, – s. 461-469. URL: https://www.academia.edu/40390201/3_Uluslararas%C4%B1_M%C3%BCzik_ve_Dans_Kongresi_%C3%96zel_Say%C4%B

1s%C4%B1_3rd_International_Music_and_Dance_Congress_Special
6. Eyvazzadə, G.A. S.V.Raxmaninovun "Korelli mövzusuna variasiyaları"na (op.42) dair professor Nigar Usubovanın ifaçılıq baxımından metodik göstərişlərinə elmi şərhlər // – Bakı: Sənət Akademiyası, – 2018. № 2 (5), – s. 96-104.
7. Eyvazzadə, G.A. Professor Nigar Usubovanın F.Listin fortepiano əsərlərinin ifaçılıq prinsiplərinə dair bir sıra praktiki tövsiyələri // – Bakı: Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, – 2018. № 2 (4), – s. 81-90.
8. Eyvazzadə, G.A. Professor Nigar Usubovanın pedaqoji fəaliyyətində Azərbaycan bəstəkarlarının fortepiano əsərlərinin öyrənilməsinə dair praktik göstərişlər // – Bakı: Mədəniyyət.az, – 2019. №2, – s.75-79.
9. Eyvazzadə, G.A. Исследование проблем фортепианного творчества А.С.Аренского в научных работах профессора Нигяр Усубовой // – Киев: Вестник, – 2021. № 2 (4), – s. 89-100. URL: http://musical-art.knukim.edu.ua/article/view/233341/232257
10. Eyvazzadə, G.A. Professor Nigar Usubovanın pedaqoji repertuarında konsert janrının ifaçılıq prinsiplərinə dair praktik göstərişləri // – Naxçıvan: Axtarışlar, – 2022. № 2 (42), – s.183-189.
11. Eyvazzadə, G.A. Professor Nigar Usubovanın N.Metnerin fortepiano və simfonik orkestr üçün №2 (c-moll) konsertinin ifaçılıq xüsusiyyətlərinə dair praktiki tövsiyələri // "Azərbaycan musiqi mədəniyyətinin inkişafında Heydər Əliyevin rolu" Respublika elmi-praktiki konfransının materialları, – Bakı: – 26-27 aprel, 2023, – s. 40-45.

Dissertasiyanın müdafiəsi ___ ________ 2024-cü il tarixində saat ____ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ _________ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 06.05.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 43 664 işarə

Tiraj: 100